AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXS

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
________professor C.E.Mahmudova

# ADMİU BƏDİİ ŞURASININ

# ƏSASNAMƏSİ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
26 dekabr 2022-ci il tarixli iclasının
05 №-li protokolu ilə təsdiq edilmişdir

Bakı - 2022

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin**

**Bədii Şurasının**

**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar:

1.1. Bədii Şura (bundan sonra BŞ) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra Universitet) professor-müəllim heyətinin yaradıcılıq-ifa işlərinin səmərəsinin artırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə, habelə tələbələrin yaradıcılıq-ifa işlərində faəllıqlarını təmin etmək məqsədi ilə ictimai əsaslarla fəaliyyət göstərən kollegial əlaqələndirici orqandır.

1.2. BŞ öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Təhsil haqqında Qanununu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərini və kollegiyasının qərarlarını, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarını, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsini, Elmi Şurasının qərarlarını, rektorunun əmr və göstərişlərini, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Bədii Şuranın üzvlərinin sayı 5 (beş) nəfərdən az ola bilməz, tərkibi və səlahiyyət müddəti (hər il) rektorun müvafiq əmrilə təsdiq olunur və ya dəyişdirilir. Dəyişikliklər Elm və yaradıcılıq işləri üzrə prorektorun təklifi ilə rektorun əmrləri ilə rəsmiləşdirilir. Bədii Şuranın tərkibinə yaradıcılıq ixtisasları və hazırlıq sahələri üzrə ixtisaslaşmış mütəxəssislər, yaradıcılıq fəaliyyətində özünü doğrultmuş şəxslər daxildir.

1.4. Universitetdən xaric edilmiş, üzvlükdən çıxmaq barədə ərizə ilə müraciət etmiş, Şuranın iclaslarında və işində iştirak etməyən üzvlər Bədii Şura tərkibindən çıxarılır.

1.5. Bədii Şuranın əsas vəzifəsi profesor-müəllim heyətinin yaradıcılıq-ifa işlərinə nəzarət etməkdən ibarətdir.

1.6. Bədii Şura mədəniyyət və incəsənətə dair mövzuların, keçirilən tədbir və yubileylərin müasir dövrün tələbləri baxımından aktuallığını, tarixiliyini və müasirliyini müəyyənləşdirir.

1.7. BŞ-ə bir qayda olaraq Elm və yaradıcılıq işləri üzrə prorektor ümumi rəhbərlik edir. Bədii şuranın sədri, sədrin müavini və katibi şuranın üzvləri arasından seçilir.

2. **Bədii Şuranın vəzifələri və funksiyaları aşağıdakılardır**:

2.1. Müəllimlərin yaradıcılıq-ifa işlərinə nəzarət və onların qəbulu (yaradıcılıq fəaliyyətinin nəticəsini müəyyən edir, öyrənir və qiymətləndirir).

2.7. Dəvətnamə və afişaların səviyyəli və vaxtında çap olunmasına nəzarət etmək.

2.8. Tədbirlərin işıqlandırılmasını təmin etmək.

2.9. Yaradıcılıq-ifa işlərinin çəkilişini tərəfindən təmin etmək.

2.10. Universitetdə keçirilməsi planlaşdırılan tədbirlərin mövzularının müəyyənləşməsinə nəzarət etmək

2.11. Fakültə dekanları və kafedra müdirlərinin müzakirələrdə iştirakını təmin etmək.

2.12. Fərqlənən yaradıcılıq-ifa işlərini layiqincə qiymətləndirmək.

2.13. Universitetdə bədii-yaradıcılıq fəaliyyətinin əsas nəticələrinin təhlili və qiymətləndirilməsi, onun inkişafının əsas istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsi, habelə onun səmərəliliyinin artırılması üzrə təkliflərin işlənib hazırlanması.

2.14.Bədii və yaradıcılıq fəaliyyəti sahəsində siyasətin formalaşdırılması, incəsənət və mədəniyyət sahəsində təhsil proqramlarının həyata keçirilməsi.

2.15. təklif olunan materialın (repertuarın) dəyişdirilməsi və təkmilləşdirilməsi üçün təkliflər vermək.

**3. Bədii Şuranın fəaliyyətinin təşkili:**

3.1. Təsdiq olunan yaradıcılıq-ifa işlərinin nəzəri istiqamətlərinin müəyyənləşməsində milli-tarixi taleyimiz, kürəsəlləşən dünyada mədəniyyətin milliliyinin qorunması, tarixilik və müasirliyin vəhdətinin əsas istiqamət kimi götürülməsi.

3.2. Yaradıcı kafedraların repertuar planlarının Bədii Şurada təsdiq olunduqdan sonra Elmi Şuraya təqdim edilməsi.

3.3. Yaradıcılıq-ifa işlərinin tədris ilinin sonunadək (aprel-may) qəbul edilməsi.

3.4. Bədii Şuranın iclası üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətli sayılır.

3.5. Bədii Şura sadə səsvermə yolu ilə qərarlar qəbul edir. Bədii şuranın qərarları onun lehinə iştirak edənlərin 50 faizi üstəgəl bir səsi olduqda açıq səsvermə yolu ilə qəbul edilir. Qərarlar şuranın katibi tərəfindən iclas protokollarında rəsmiləşdirilir.

3.6. Bədii Şuranın iclasları protokollaşdırılır. Protokollar tədris ilinin əvvəlindən nömrələnir.